

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 166 (21.067)

2 sentyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Nankin şəhərində yeniyetmələr arasında keçirilən ikinci Yay Olimpiya Oyunlarında iştirak etmiş milli komandamızın üzvlərini qəbul edib.

* * *

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində ("Xutor dairəsi") inşa olunan müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak edib.

Bu qovşağın inşası Bakıda tıxac probleminin aradan qaldırmasına və əhalinin rahatlığının təmin edilməsinə mühüm töhfə verəcək.

Görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi.

Qeyd edildi ki, qovşaqda üç tunel, bir körpü, iki piyada keçidi inşa olunub. Buradakı tunellərin uzunluğu 880, 827, 450 metr, ikisinin eni 10,5, birinin eni isə 22 metr təşkil edir. Qovşaqda müasir səviyyədə inşa edilən körpünün uzunluğu 630 metr, eni isə 12 metrdir.

Prezident İlham Əliyev qovşağın rəmzi açılışını bildirən lenti kəsdi.

## "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Davamlı inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında dinamik yüksəlişə nail olunmuşdur. Sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla icra edilməsi makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına, sahibkarlığın və özəl sektorun inkişafına, investisiya qoyuluşlarının artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, sosial infrastruktur təminatının gücləndirilməsinə, əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəlməsinə təkan vermişdir.

Sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində muxtar respublika iqtisadiyyatı inkişafın yeni mərhələsinə yüksəlmişdir. Ötən 10 il ərzində Ümumi Daxili Məhsul 13,9 dəfə, sənaye 49 dəfə, kənd təsərrüfatı 4,7 dəfə, investisiyalar 16,4 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, orta aylıq əməkhaqqı 9,8 dəfə artmış, 58 mindən çox yeni iş yeri yaradılmışdır.

Muxtar respublikada formalaşmış əlverişli iqtisadi mühit, əldə edilmiş yüksək inkişaf göstəriciləri proqram-məqsədli idarəetmənin səmərəliliyini təsdiq edir və sosial-iqtisadi inkişaf sahəsində başlanmış tədbirlərin yeni mərhələdə davam etdirilməsi zərurətini yaradır.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikada növbəti mərhələdə iqtisadiyyatın çoxşaxəli və davamlı inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və onun icrası barədə ildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 sentyabr 2014-cü il*

## M.İ.Rzayevin Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Malik İbrahim oğlu Rzayev Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 sentyabr 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı

### Giriş

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində dinamik inkişafın möhkəm təməli yaradılmışdır. Bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, investisiyaların daha çox regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin təmin edilməsi həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin ana xəttini təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Ötən 10 il ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi göstəricilərinin yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 10,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 11,1 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 9,8 dəfə, əhaliyə göstərilən pullu xidmətlər isə 12,9 dəfə artmışdır.

Muxtar respublikanın hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramının icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır.

Dövlət Proqramının icraçıları müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarıdır. Proqramın icrasının əlaqələndirilməsi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilir.

**1. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunları**

Dövlət Proqramının əhatə etdiyi ötən beş ildə Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,9 dəfə artaraq 2 milyard 338 milyon 928 min manata çatmış, hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 423 manat təşkil etmişdir. Muxtar respublikanın sənayesində 5,2 dəfə, kənd təsərrüfatında isə 2,2 dəfə artıma nail olunmuşdur.

İqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlər əhalinin rifah səviyyəsinin davamlı yüksəlişinə səbəb olmuşdur. Məşğulluq imkanlarının genişlənməsi, habelə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının 1,6 dəfə artaraq 376,6 manata çatması əhalinin gəlirlərinin yüksəlməsi ilə nəticələnmiş və 2013-cü ildə 1 milyard 737 milyon manatdan çox olmuşdur.

Muxtar respublika iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına qoyulmuş investisiyanın illik həcmi son beş ildə 3,4 dəfə artaraq 1 milyard 37 milyon 748 min 400 manat təşkil etmişdir.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində həmin müddətdə muxtar respublikada 22.296 yeni, o cümlədən 19.215 daimi iş yeri açılmış, yaradılan sənaye müəssisələrinin sayı 438-ə çatdırılmışdır.

İqtisadiyyatın dinamik inkişafının nəticəsi olaraq, 2013-cü ildə muxtar respublikada 346 növ, 988 çeşiddə məhsul istehsal edilmişdir. Bunun 115 növ, 459 çeşidi ərzaq, 231 növ, 529 çeşidi isə qeyri-ərzaq məhsullarının payına düşür.

Özəl sektorun inkişaf göstəricilərinin dinamikası da həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir. Belə ki, son illər ərzində muxtar respublikanın Ümumi Daxili Məhsulunda özəl bölmənin xüsusi çəkisi artmış və 87 faiz təşkil etmişdir.

Dövlət Proqramının icrası dövründə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına 718 investisiya layihəsinin maliyyələşdirilməsinə bütövlükdə 69,1 milyon manat həcmində kreditlər verilmişdir.

Kənd təsərrüfatının ümumi məhsulu son beş ildə 2,2 dəfə, kartof istehsalı 1,2 dəfə, tərəvəz istehsalı 1,1 dəfə, meyvə istehsalı 1,2 dəfə, üzüm istehsalı 1,1 dəfə artmışdır. Bu müddət ərzində diri çəkidə ət istehsalı 17,2 faiz, süd istehsalı 9,1 faiz, yumurta istehsalı 30,4 faiz, yun istehsalı 9,8 faiz artmış, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır.

Ötən beş il ərzində Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının və Şərur rayonunda 20,5 meqavat gücündə Arpaçay Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyasının və 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Təbii qaz təminatı üzrə görülmüş işlər nəticəsində muxtar respublikada 81 min 162 əhali abonenti mavi yanacaqla təmin olunmuşdur. Proqramın icrası dövründə 81,6 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərinin tikintisi başa çatdırılmışdır.

Ardı 2-ci səhifədə

Artıq Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərindəki çoxmərtəbəli yaşayış binaları da qış aylarında istiliklə təmin olunur. Ötən beş ildə muxtar respublikada istilik sisteminin yenidən qurulması ilə əlaqədar 67 qazanxana tikilmiş və əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Əhalinin su təminatının yaxşılaşdırılması üçün yeni su və kanalizasiya xətləri çəkilmiş, geniş meliorasiya tədbirləri həyata keçirilmişdir. Bu dövrdə muxtar respublikada 568,1 kilometr su, 431,1 kilometr uzunluğunda kanalizasiya xətti çəkilmiş, 136 kəhriz təmir və bərpa olunmuşdur.

Ötən beş il ərzində muxtar respublikada 880 kilometrdən çox magistral və yerli əhəmiyyətli yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 44 körpü tikilmişdir.

2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları" ili elan edilməsi muxtar respublikada bu sahənin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkmişdir. Proqramın icrası dövründə muxtar respublikada 120 rabitə müəssisəsi tikilmiş, 76 rabitə müəssisəsi əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Naxçıvan şəhərində, Şərur, Sədərək rayonlarında 3-cü nəsil kommunikasiya sistemləri quraşdırılmışdır. Bu sistem hazırda istifadəçilərin 57 faizinə xidmət göstərir. Avtomat telefon stansiyalarının 94 faizi fiber-optik bağlantılarla təmin edilmişdir. İnformasiya cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət" portalı yaradılmışdır.

Poçt xidmətlərinin müasir tələblər səviyyəsində qurulmasını, ənənəvi xidmətlərlə yanaşı, poçt-maliyyə xidmətlərinin də göstərilməsini və kommunal xidmət haqlarının poçtlar vasitəsilə yığılmasını təmin etmək, eləcə də bu sahədə idarəetməni təkmilləşdirmək məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Dövlət Proqramı çərçivəsində muxtar respublikada müharibə veteranları, əlillər, şəhid ailələri, qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 53 fərdi ev inşa edilmişdir.

Təhsil infrastrukturunun yenilənməsi, müasir tədris vasitələri ilə təchiz olunmuş məktəb binalarının tikintisi diqqət mərkəzində saxlanılmışdır. Dövlət Proqramının icrası müddətində muxtar respublikada 35 yeni məktəb, 10 bağça tikilmiş, 40 məktəb, 2 bağça əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüş, o cümlədən tibb müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Ötən beş il ərzində muxtar respublikada 68 yeni səhiyyə müəssisəsi tikilmiş, 11 səhiyyə müəssisəsi əsaslı təmir olunmuşdur.

Bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi üçün həmin müddətdə 9 yeni idman müəssisəsi tikilmiş, 5 idman müəssisəsi isə əsaslı təmir olunmuşdur.

Dövlət Proqramı çərçivəsində mədəni potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmaqla, 97 yeni mədəniyyət müəssisəsi tikilmiş, 38 mədəniyyət müəssisəsi isə əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Bütün bunlar növbəti illərdə də muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi üçün möhkəm baza yaratmışdır.

**2. Dövlət Proqramının məqsədi, vəzifələri və sosial-iqtisadi inkişafın prioritet istiqamətləri**

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün muxtar respublikada ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusilə kənd əhalisinin məşğulluq səviyyəsinin və gəlirlərinin artırılması, infrastruktur təminatının, o cümlədən kommunal xidmətlərin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

**Makroiqtisadi sabitlik** şəraitində maliyyə-idarəetmə mexanizminin təkmilləşdirilməsi, daha səmərəli büdcə mexanizminin formalaşdırılması prosesinin davam etdirilməsi üçün 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Ümumi Daxili Məhsul üzrə büdcəyə daxil olan gəlirlərin həcminin artırılması;
- sosial siyasətin davam etdirilməsi və sosial öhdəliklərin yerinə yetirilməsi üçün xərclərin investisiya və sosialyönümlülüyünə üstünlük verilməsi;
- yerli istehsalçıların stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi;
- sosial infrastruktur sahələrin inkişafına yönəldilmiş məqsədyönlü tədbirlərin davamlılığının təmin edilməsi, bu sahələr üzrə müəyyənləşdirilmiş prioritetlərin diqqət mərkəzində saxlanılması;
- turizmin inkişafının dövlət büdcəsi və alternativ maliyyə vəsaitləri hesabına dəstəklənməsi;
- qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daxili imkanların səfərbər edilməsi və büdcə vəsaitindən istifadənin səmərəliliyinin təmin edilməsi.

Muxtar respublikada **məşğulluq səviyyəsinin** daha da artırılması və yeni iş yerlərinin açılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin davam etdirilməsi;
- qeyri-məşğul əhalinin peşə hazırlığının yüksəldilməsi;
- müstəqil məşğulluğun inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi;
- əmək yarmarkalarının keçirilməsi sahəsində səmərəliliyin artırılması;
- idarə, müəssisə və təşkilatların işçilərə olan tələbatının müntəzəm öyrənilməsi və boş iş yerlərinə işaxtaran vətəndaşların göndərilməsinin təmin edilməsi;
- məşğulluq xidməti orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi;
- kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin məskunlaşma səviyyəsinin yüksəldilməsi.

İqtisadiyyatın diversifikasiyasının təmin edilməsində, sahibkarlıq təşəbbüsünün dəstəklənməsində **bank və kredit təşkilatlarının** rolu əhəmiyyətli dərəcədə artırılacaqdır. Qarşıdakı illərdə bank sektorunda daha sağlam rəqabət mühiti formalaşdırılacaq, müştərilər keyfiyyətli və geniş çeşidli bank xidmətləri ilə tam təmin ediləcək, bankların kredit və investisiya imkanları artırılacaq, bank xidmətləri bazarının inkişafına nail olunacaq, səmərəli sığorta sisteminin formalaşdırılması ilə bağlı zəruri tədbirlər davam etdiriləcəkdir.

Muxtar respublikada **investisiya fəaliyyətinin** yaxşılaşdırılması və investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi üçün 2014-2018-ci illərdə aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- investisiya prosesinin təkmilləşdirilməsi və idarə olunmasının yaxşılaşdırılması;
- xarici investisiyaların emal və yüksək texnologiyalı sahələrə təşviqinin artırılması;
- iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi;
- mülkiyyət formasından, fəaliyyət növündən və qoyulan investisiyanın həcmindən asılı olmayaraq, bütün investorlar üçün bərabər rəqabət mühitinin yaradılması;
- müasir istehsal avadanlıqlarının idxalının təşviqi istiqamətində müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi;
- investisiya resurslarının yerləşdirilməsi üçün rəqabətli müsabiqə mexanizmlərindən geniş istifadə edilməsi, Naxçıvan Muxtar Respublikasının inkişaf proqramlarının hazırlanıb həyata keçirilməsində yerli və xarici investorlar üçün stimulların müəyyənləşdirilməsi;
- yaradılmaqda olan sənaye parklarına yerli və xarici investisiyaların cəlb edilməsi;
- ixracyönümlü istehsal sahələrinin inkişafına yönəldilən investisiyaların artırılması.

Muxtar respublikada **sahibkarlığın inkişafı** üçün əlverişli biznes mühitinin formalaşdırılması müstəsna əhəmiyyət kəsb edir. Qarşıdakı illərdə sahibkarlığın inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- biznes infrastrukturunun müasir tələblər səviyyəsində formalaşdırılması;
- sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınmasının davam etdirilməsi;
- istehsal, bazar və sosial infrastruktur təminatının yaxşılaşdırılması;
- bazarda azad rəqabət prinsiplərinin bərqərar olunması və inhisarçılıq, ayrı-seçkilik hallarına qarşı mübarizənin gücləndirilməsi;
- sahibkarlıq fəaliyyətinin informasiya təminatı sisteminin müasir tələblər səviyyəsində qurulması;
- sahibkarlığın maliyyə təminatının artırılması üçün alternativ mənbələrin araşdırılması və aktivləşdirilməsi;
- Sahibkarlığa Kömək Fondu tərəfindən iqtisadiyyatın prioritet sahələrinin inkişafı ilə bağlı layihələrə güzəştli kreditlərin verilməsinin davam etdirilməsi;
- muxtar respublikanın ixracyönümlü məhsullarının xarici bazarlarda mövqeyinin gücləndirilməsi və bazar hüdudlarının genişləndirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi;
- muxtar respublikada dünya təcrübəsinə əsaslanan iqtisadi zonaların yaradılması üçün tədbirlərin görülməsi;
- muxtar respublikada kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsi;
- sahibkarların xarici iqtisadi fəaliyyətinin və əlaqələrinin genişləndirilməsi məqsədilə iş adamları birliklərinin yaradılması.

**Sənayeləşmə siyasətinə** uyğun olaraq, muxtar respublikada yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlər davam etdiriləcəkdir. Sənayenin inkişafı sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- sənayenin təşkilində mövcud xammal və işçi qüvvəsi potensialından səmərəli istifadə edilməsi;
- sənayedə investisiya və innovasiya fəallığının artırılması;
- mövcud müəssisələrin köklü modernizasiyası, elm tutumlu sahələrin və müəssisələrin inkişafının iqtisadi vasitələrlə stimullaşdırılması, yüksək əmək məhsuldarlığına malik, müasir texnologiyalı, resursqoruyucu müəssisələrin yaradılması;
- yerli tələbat və ixrac imkanları nəzərə alınmaqla yeni sənaye müəssisələrinin yaradılması, investisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsi, infrastrukturun daha da təkmilləşdirilməsi;
- tikinti materialları istehsal edən, o cümlədən yerli xammal əsasında fəaliyyət göstərən sənaye sahələrinin daha da inkişaf etdirilməsi;
- təbii ehtiyatlardan səmərəli istifadənin genişləndirilməsi, mövcud filiz və qeyri-filiz yataqlarında geoloji kəşfiyyat işlərinin aparılması və onların istismara cəlb olunması;
- vacib hesab edilən sənaye sahələrinin inkişafının dövlət tərəfindən dəstəklənməsi;
- rəqabətədavamlı sənaye məhsulu istehsalının genişləndirilməsi;
- beynəlxalq standartların sənaye müəssisələrində tətbiqinin dəstəklənməsi;
- texnoparkların, sənaye komplekslərinin, sənaye şəhərciklərinin yaradılması;
- mövcud müəssisələrin müasir texnologiya əsasında yenidən qurulması prosesinin davam etdirilməsi;
- sənaye sahəsi üzrə ixtisaslı kadr hazırlığının genişləndirilməsi.

Muxtar respublika iqtisadiyyatının vacib sahəsi olan **kənd təsərrüfatında ardıcıl islahatlar** və yeni texnologiyaların tətbiqi davam etdiriləcəkdir. Aqrar bölmənin inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsi səviyyəsini yüksəltmək üçün ərzaq məhsulları istehsalı həcminin artırılması, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması;
- ərzaq və digər kənd təsərrüfatı malları bazarlarının qorunması, yerli istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi;
- aqrar sənaye sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi;
- suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi;
- baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi;
- fermer təsərrüfatlarına dövlətin maliyyə dəstəyinin gücləndirilməsi, mikrokredit təşkilatları və kredit ittifaqlarının fəaliyyətinə stimullaşdırılması;
- kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi;
- aqrar sektora xidmət edəcək birjaların, topdansatış bazarların, auksionların təşkilinin dövlət tərəfindən dəstəklənməsi;
- fövqəladə hallar şəraitində əhalinin ərzaq məhsulları ilə normal təminatı mexanizminin təkmilləşdirilməsi;
- üzümçülüyün bərpası üçün mövcud üzüm bağlarında aqrotexniki tədbirlərin həyata keçirilməsi və yeni üzümlüklərin salınmasının davam etdirilməsi;
- qiymətli balıq növlərinin istehsalına dövlət dəstəyinin gücləndirilməsi, onların artırılması və istifadəsi ilə bağlı layihə və tədbirlərin həyata keçirilməsi;
- daha uzunmüddətli və daha çox meyvə-tərəvəz çeşidinin saxlanmasına imkan verən soyuducu anbarların yaradılması;
- aqrar sahədə ixtisaslı kadr potensialının gücləndirilməsi;
- gübrə istehsalı, zərərvericilərə qarşı dərmanlar və kənd təsərrüfatının inkişafına müsbət təsir edən məhsulların istehsalının dəstəklənməsi;
- müasir texnika və texnologiyanın kənd təsərrüfatında tətbiqinə nail olunmasının dəstəklənməsi.

İstehsal olunan məhsulların ixracının genişləndirilməsi və ixrac prosedurlarının daha da sadələşdirilməsi məqsədilə 2014-2018-ci illərdə muxtar respublikada **xarici ticarət fəaliyyətinin** prioritet istiqamətlərinə uyğun olaraq, aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- muxtar respublikanın ixrac potensialının gücləndirilməsi, ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən əməli tədbirlərin davam etdirilməsi;
- muxtar respublikada daxili bazarın qorunmasını təmin edən və iqtisadi inkişafa əlverişli şərait yaradan idxal tənzimlənməsinin həyata keçirilməsi;
- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- istehsal olunan malların xaricdə tanınması üçün beynəlxalq sərgi və yarmarkalarda iştirakın stimullaşdırılması;
- xarici ticarət sahəsində uyğun beynəlxalq təcrübədən səmərəli istifadə edilməsi.

Muxtar respublikada göstərilən rabitə xidmətlərinin müasir tələblər səviyyəsinə çatdırılması, **informasiya və kommunikasiya texnologiyalarının** tətbiqinin genişləndirilməsi üçün 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- informasiya və kommunikasiya sistemlərinin müasir standartlar səviyyəsində formalaşması və onların daha da inkişaf etdirilməsinin dəstəklənməsi;
- əhalinin İKT-nin xidmətlərindən səmərəli istifadəsi üçün onlar arasında maarifləndirmə işinin təşkili;
- yüksək dağlıq bölgələrdə televiziya və radio yayımlarının keyfiyyətinin yüksəldilməsi;
- informasiya təhlükəsizliyinin təmin edilməsi;
- mühəndis və texniki işçilərin hazırlıq səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin həyata keçirilməsi;
- yeni texnologiyaların tətbiq edilməsi ilə simsiz internet xidmətlərinin inkişaf etdirilməsi;
- Naxçıvan Muxtar Respublikası ərazisində efir məkanının təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi.

*Ardı 3-cü səhifədə*

Muxtar respublikada **turizmin inkişafı** qarşıdakı illərdə prioritet olaraq qalacaq, turizm ehtiyatlarının artırılması, təklif edilən turizm və digər mədəni xidmətlərin genişləndirilməsi, turizm obyektlərinin tikintisi ilə bağlı layihələrin icrası davam etdiriləcəkdir. Turizm sahəsinin inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- muxtar respublikada beynəlxalq tələblərə cavab verəcək turizm infrastrukturunun yaradılmasının stimullaşdırılması;
- muxtar respublikanın regionlarında turizm potensialının öyrənilməsi, qış turizminin inkişafı imkanlarının araşdırılması və müvafiq tədbirlərin görülməsi;
- mövcud olan mehmanxanaların fəaliyyətinin yüksək səviyyədə, dünya standartlarına uyğun təşkil edilməsinin dəstəklənməsi;
- kənd turizminin inkişafının stimullaşdırılması;
- turizm fəaliyyətinin stimullaşdırılması və bu sahəyə investisiyaların cəlb edilməsinin təşviq edilməsi;
- turizm sektorunun ixtisaslı kadrlarla təminatı səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin həyata keçirilməsi;
- tarixi yerlərə turist marşrutlarının təşkili.

Enerji təhlükəsizliyi ilə bağlı görülən tədbirlər nəticəsində muxtar respublika tamamilə qazlaşdırılmış, yaradılmış elektrik stansiyaları daxili tələbatı tam ödəməklə yanaşı, elektrik enerjisinin ixracına da imkan yaratmışdır. Qarşıdakı illərdə **elektrik və qaz təsərrüfatında** görüləcək işlər onun səmərəliliyini artırmaqdan ibarət olacaqdır. 2014-2018-ci illərdə bu sahədə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- muxtar respublikada yeni su elektrik stansiyalarının tikintisi, yeni yarımstansiya və ötürücü sistemlərin qurulmasının davam etdirilməsi;
- fəaliyyət göstərən stansiyalarda yenidənqurma işlərinin təşkil edilməsi;
- enerji sistemində itkilərin minimuma endirilməsi;
- qaz təchizatının daha da yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi;
- müasir istilik sistemlərinin qurulması, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidən qurulması işlərinin davam etdirilməsi;
- muxtar respublikada alternativ enerjidən istifadə metodlarının tətbiqi və araşdırılmasının davam etdirilməsi.

Muxtar respublikada əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi əsas məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. **Mənzil-kommunal təsərrüfatının inkişafı**, mənzil fondunun istismarı və saxlanması səviyyəsinin yüksəldilməsi məqsədilə 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- mənzil-kommunal təsərrüfatı sahəsində aparılan islahatların davam etdirilməsi;
- aztəminatlı vətəndaşların, o cümlədən gənc ailələrin yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə yeni yaşayış massivlərinin salınması;
- mənzil-kommunal təsərrüafında göstərilən xidmətlərin keyfiyyətlərinin daha da yaxşılaşdırılması;
- məişət tullantılarının idarəedilməsi sahəsində müvafiq tədbirlərin görülməsi;
- muxtar respublikanın paytaxtı ilə yanaşı, rayon mərkəzlərində də müasir arxitektur tələblərə uyğun çoxmərtəbəli binaların tikintisi.

Muxtar respublikanın nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsinə çatdırılması, əhaliyə göstərilən **nəqliyyat xidmətlərinin** keyfiyyətinin artırılması vacib məsələlərdən biridir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- şəhər, qəsəbə və kəndlərarası, daxili küçə və yollarda təmir-tikinti işlərinin davam etdirilməsi;
- şəhər və rayonlar daxilində sərnişin nəqliyyatının standartlara uyğun yenidən qurulmasının davam etdirilməsi;
- müasir tələblərə uyğun səviyyədə avtomobil və dəmir yolu infrastrukturunun inkişaf etdirilməsi;
- özəl nəqliyyat şirkətlərinin yaradılmasının dəstəklənməsi;
- magistral yolların, körpülərin, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşasının, yenidən qurulmasının və inkişafı layihələrinin həyata keçirilməsinin davam etdirilməsi;
- şəhər nəqliyyatı işində ekoloji təmizlik və sərnişin daşınmasında daha səmərəli nəqliyyat növlərindən istifadə prinsiplərini əsas götürərək xidmətin müasir standartlar səviyyəsinə çatdırılması.

2014-2018-ci illərdə qarşıda duran əsas məqsədlərdən biri **ekoloji tarazlığın** təmin olunmasına nail olmaqdır. Bu sahədə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün mütərəqqi istehsal üsullarının və texnologiyalarının tətbiq edilməsi;
- indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi;
- alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- məişət tullantılarının zərərsizləşdirilməsi məqsədilə tullantı poliqonlarının tikilməsi;
- meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi, yaşıllıq sahələrinin artırılması.

Muxtar respublikada sosial tədbirlərin dəyişməz prioriteti olan insan kapitalına investisiya qoyuluşları hərtərəfli dəstəklənəcəkdir. 2014-2018-ci illərdə **əhalinin sosial müdafiəsinin** təmin edilməsi və sosial sahələrin inkişaf etdirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- pensiya sistemində daxilolmaların və ödənişlərin vaxtlı-vaxtında təmin edilməsi;
- daxil olmuş vəsaitlərin məqsədli və səmərəli bölüşdürülməsi;
- iqtisadiyyatın dinamik inkişafı nəticəsində yaranan maliyyə mənbələrinin xüsusi mexanizmlər əsasında sığorta-pensiya sisteminin inkişafına cəlb olunması;
- bütövlükdə sığorta-pensiya sisteminin ödəmə qabiliyyətinin və maliyyə dayanıqlılığının təmin olunması;
- yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması sahəsində işlərin davam etdirilməsi.

Tədris şəraitinin yaxşılaşdırılması, təhsildə informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi **təhsil sahəsinin** inkişafı istiqamətində əsas prioritetlərdəndir. Qarşıdakı illərdə təhsilin keyfiyyətinin və əhalinin təhsil almaq imkanlarının daha da genişləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- tədris müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının yaxşılaşdırılmasının davam etdirilməsi;
- təhsil müəssisələrinin tikintisi və əsaslı təmir işlərinin davam etdirilməsi, məktəblərin texniki və kadr təminatının yaxşılaşdırılması;
- xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin yaxşılaşdırılması;
- peşə və ali təhsil sistemində islahatların gücləndirilməsi, o cümlədən kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması.

2014-2018-ci illərdə səhiyyə sahəsində qarşıya qoyulan əsas məqsədlər ilkin **səhiyyə xidmətlərinin** gücləndirilməsi, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi olacaqdır. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin artırılması;
- səhiyyə işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və ailə həkimlərinin hazırlanması;
- yeni səhiyyə müəssisələrinin tikintisi və əsaslı təmiri işlərinin davam etdirilməsi;
- icbari tibbi sığorta sisteminin tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi;
- Genişləndirilmiş İmmunizasiya Proqramının daha da təkmilləşdirilməsi və digər qarşısı alına bilən xəstəliklərin azaldılması;
- tibb sənayesi müəssisələrinin yaradılmasının dəstəklənməsi;
- sanatoriya-kurort müəssisələrinin yaradılması və onların infrastruktur təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi.

**Gənclərin**, həmçinin **bədən tərbiyəsi və idmanın** inkişafının dəstəklənməsi məqsədilə aparılan işlər 2014-2018-ci illərdə də davam etdiriləcəkdir. Gənclərin sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtın səmərəli təşkili üçün müvafiq şəraitin yaradılması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- gənclərin intellektual səviyyəsinin və dünyagörüşünün artırılması üçün yeni layihələrin tətbiq olunması;
- gənc ailələrin sosial rifahının artırılmasına yönəlmiş ipoteka sisteminin gücləndirilməsi;
- istedadlı və yaradıcı gənclərin fəaliyyətinin stimullaşdırılması və nailiyyətlərinin qiymətləndirilməsi sisteminin yaradılması;
- gənc alimlərin, tədqiqatçıların və yaradıcı gənclərin inkişafına yönəlmiş müxtəlif elmi konfransların, müsabiqələrin və digər tədbirlərin keçirilməsi;
- gənclərin məşğulluğunun daha da artırılması və gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi;
- kütləvi idman tədbirlərinin müntəzəm təşkil edilməsi;
- gənclər arasında sağlam həyat tərzinin təbliği və təşviqinin gücləndirilməsi;
- idman müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və inkişaf etdirilməsi işlərinin davam etdirilməsi.

Qarşıdakı illərdə **mədəni irsin qorunması**, qloballaşma şəraitində mədəni çeşidliliyin daha da inkişaf etdirilməsi, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması, mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi üzrə müvafiq tədbirlər davam etdiriləcəkdir.

Dövlət Proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla, nəzərdə tutulan məqsədlərə nail olunmasında və əhalinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

**3. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri**

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

- Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi;
- büdcədənkənar dövlət fondları;
- mülkiyyət formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların vəsaitləri;
- Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun vəsaitləri;
- yerli və xarici sahibkarların vəsaitləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

## Naxçıvanda "Muzey günləri" davam etdirilir



*Muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün "Muzey günləri" tərtib olunub. "Muzey günləri"ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.*

Avqustun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, 47 il bundan əvvəl fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi görkəmli ədiblərimizin həyat və yaradıcılığının öyrənilməsi, elmi cəhətdən tədqiqi və təbliği sahəsində fəaliyyət göstərir. Böyük yazıçı, mütəfəkkir, ictimai xadim, "Molla Nəsrəddin" jurnalının yaradıcısı Cəlil Məmmədquluzadənin 100 illik yubileyinin Azərbaycanda qeyd olunduğu günlərdə – 1967-ci il iyun ayının 12-də Naxçıvan şəhərində Ədəbiyyat Muzeyinin açılışı olmuş və muzeyə Cəlil Məmmədquluzadənin adı verilmişdir. Muzeyin fondunda çoxsaylı Azərbaycan ədəbiyyatı tarixini əks etdirən qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, qədim və müasir kitablar, qəzet və jurnallar, xatirə əşyaları və digər materiallar mühafizə olunur. Ekspozisiyada Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin həyat və yaradıcılığını əks etdirən guşələr vardır. Muzeyə gələnlər naxçıvanlı şair və yazıçıların yaradıcılıqları ilə də tanış ola bilərlər. Həmçinin muzeyin ekspozisiyasında Naxçıvan teatrının tarixinə aid sənədlər, görkəmli sənətkarların yaradıcılığını əks etdirən fotoşəkillər də nümayiş olunur.

Qeyd olunmuşdur ki, muzeydəki eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycan ədəbiyyatının tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali, orta ixtisas və ümumtəhsil məktəblərinin tələbə və şagirdlərinin iştirakı ilə muzeydə müxtəlif mövzularda açıq dərslər də keçirilir.

**"Şərq qapısı"**

*Bu gün muxtar respublikada nail olunmuş sosial-iqtisadi inkişaf, təhsilə göstərilən dövlət qayğısı, bu sahədə olan çatışmazlıqların tezliklə aradan qaldırılması üçün həyata keçirilən təsirli və məqsədyönlü tədbirlər bütün valideynlərin, həmçinin müəllim və şagirdlərin problemini aradan qaldırıb. Dərsliklər pulsuz verilir, məktəbli geyimləri vahid formadadır, istənilən ölçüdə məktəbli formaları ucuz qiymətə satılır, məktəbli ləvazimatları da boldur.*

## Məktəbli yarmarkasında qələbəlik idi

Daha bir yaxşı hal ondan ibarətdir ki, hər il Naxçıvan şəhərində məktəbli yarmarkaları təşkil edilir. Buradan istənilən məktəbli ləvazimatını və geyimlərini, ən uzağı, bir saat ərzində almaq olar. Cari ildə də Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda təşkil edilən məktəbli yarmarkasında qələbəlik müşahidə olunur. Qeyd edək ki, sentyabr ayının 1-dən başlanan və 15-dək davam edəcək yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, lüğət, bədii ədəbiyyatlar və digər ləvazimatlar satılır.

Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Burada satılan lüğət və digər nəşrlərə, dünya uşaq ədəbiyyatı nümunələrinə, bədii və elmi ədəbiyyata da böyük alıcı marağı vardır. Satış yerlərinin hər birində məhsulların zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, yüksək xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən təşkil edilən, 40-dan çox sahibkarlıq subyektinin iştirak etdiyi məktəbli yarmarkasında Naxçıvan şəhərində fəaliyyət göstərən yerli istehsal müəssisələrinin məhsulları da satışa çıxarılır.

Yarmarkada həmsöhbət olduğumuz valideynlərin və müəllimlərin hamısı belə tədbirin təşkilindən razılıqlarını bildirdilər.

**Xəbərlər şöbəsi**

## Distant tədris sağlamlıq imkanları məhdud uşaqların təhsil almalarında mühüm rol oynayacaq

Hər bir ölkənin gələcəyi onun təhsilinin səviyyəsindən asılıdır. Məhz əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil strategiyasının məqsədi də ölkəmizdə insan kapitalının inkişafına nail olmaqdan ibarətdir. Bu səbəbdən ölkəmizdə qabaqcıl təhsil sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilib. Hazırda Naxçıvan Muxtar Respublikasında təhsilin mahiyyətcə yeni müstəviyə keçirilməsi, yeni təhsil müəssisələrinin yaradılması və onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil almalarına, həmçinin onların cəmiyyətə inteqrasiya olunmalarına əlverişli mühit yaranmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nda əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunmasından, inklüziv və məsafədən (distant) təhsilə keçidə zəmin hazırlanmasından, bu kateqoriyadan olan uşaqların sosial reabilitasiyasının gücləndirilməsindən, onların cəmiyyətə inteqrasiyasına nail olunmasından, sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılmasından və sağlamlıq imkanları məhdud uşaqların məktəb mühitinə uyğunlaşmaları üçün müvafiq pedaqoji kadrların hazırlanmasından ibarətdir. Adıçəkilən dövlət proqramının icrası istiqamətində atılan addımlardan biri də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılmasıdır.

Mərkəzdən aldığımız məlumata görə, distant tədrisə muxtar respublikamızın şəhər və rayonlarından 19 nəfər sağlamlıq imkanı məhdud uşaq cəlb edilib. Bu uşaqlarla 4 müəllim məşğul olacaq. Bu kateqoriyadan olan uşaqların ailələrinə notbuk və vebkameralar verilib, mərkəzdə tədris sinfi yaradılıb. Sinifdə intellektual-elektron lövhə, kompüter, videokamera quraşdırılıb. Artıq bir neçə gündür, həmin uşaqlarla sınaq təlimlərinə başlanılıb. Yeni dərs ilinin başlanması ilə əlaqədar distant tədrisə cəlb edilən həmin uşaqlar da videobağlantı ilə dərslərdə iştirak edə biləcəklər.

✍ **Səbuhi HƏSƏNOV**

***Taxıl əkini hər bir məmləkətin iqlim xüsusiyyətlərinə görə payız və yaz fəsli aparılır. Naxçıvan diyarının iqlimi mötədil olduğundan və yazda digər işlərin çoxluğundan bineyi-qədimdən taxılın payız əkininə daha çox üstünlük verilmişdir. İnsanın qida payında çörəklə yanaşı, un məmulatları (yarma, makaron, vermişel, əriştə, unlu-umaclı xörəklər, hər cür zənginliyə malik şirniyyatlar) məhz bərəkətli taxıl zəmilərindən hasilə gəlir. Culfa rayonu ərazisindəki Darıdağda minillik tarixə malik dəyirmandaşı yataqları, əksər yaşayış məntəqələrimizdəki xeyli sayda su dəyirmanları bu torpaqlarda bol taxıl yetişdirilməsindən xəbər verir. Arpa, buğda, gülül, çovdar, darı, vələmir, noxud, mərcimək kimi dənli-paxlalılar öz dadı-tamı ilə məşhurdur.***

## Payız əkini

### *Taxıl iki yay görməlidir*

Payızlıq əkinlə yazlıq əkinin məhsulunda tərkibcə dad fərqi olur. Halva, plovluq üçün əriştə yazlıq buğda unundan hazırlanır.

Dağlıq zonalarda payız əkininə avqustun ikinci yarısından başlanardı ki, səpilən toxumlar cücərib, suvarılıb kollanma fazasına elə daxil olsun ki, necə deyərlər, içərisində kəklik gizlənə bilsin. Buna görə atalarımızın belə bir məsəli var: "Taxıl iki yay görməlidir". Belə kollanmış taxıla qışın qarı, şaxtası güc gələ bilməz, o, yaza salamat çıxar. İkinci yayın günəşli günləri bol məhsul yetirir. Bu ilin nəticələri göstərir k, keçən payızdan əkilən 35,7 min hektaradək arpa, buğda əkinləri aqrotexniki qaydada optimal müddətdə keçirilmiş, suvarılıb gübrələnmiş, alaqlara, zərərverici və xəstəliklərə qarşı düzgün mübarizə aparılmış, yetişdirilən məhsul vaxtında və itkisiz tədarük olunaraq 103 min tondan çox məhsul əldə edilmişdir. İlkin emaldan toxumluq, ərzaq və mal-qara üçün yem ehtiyatı yaradılmışdır. Təbiidir ki, 2015-ci ilin məhsulu üçün payızlıq əkinlərə hələ iki ay bundan əvvəl hazırlıq görülüb. Mövcud vəziyyətlə bağlı Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları Əsgər Həsənov və Zərrab Əfəndiyevlə həmsöhbət olduq.

***Əsgər müəllim, payız əkininə başlanana kimi hansı ardıcıl aqrotexniki tədbirlər həyata keçirilməlidir?***

– Əvvəla, torpağın potensial gücünü ortaya çıxarmaq üçün uzun illər ard-arda bir taxıl növünü eyni yerdə əkmək olmaz; torpaq birtərəfli mənimsədildiyi üçün qüvvədən düşər. Mütləq növbəli əkinə və xam, dincə qoyulmuş torpaqlara üstünlük verilməlidir. İkinci bir tərəfdən, yay şumunun faydası min illərdir, sınaqdan çıxıb. Yay şumunu Günəş istiliyi elə dağlayır ki, torpaq qızarır, alaq deyilənin toxumu kəsilir, torpaq dənəvər hala düşür. Təbiətin öz gücü ilə parçalanma prosesi elə bioloji fəallıq yaradır ki, daha torpaqlara azot, fosfor, kalium kimi mineral birləşmələrin verilməsinə ehtiyac qalmır. Həmin gübrələrdən istifadə tarixi son 70-80 ilə aiddir. Ata-babalarımızdan yay şumunun torpağın tərkibini təbii olaraq zənginləşdirdiyini öyrənmişik. Eləcə də yay şumu torpağın alt qatında rütubəti də saxlayır.



*– Əsgər müəllim, yeri gəlmişkən, bir məsələni qeyd edim. Badamlı kəndində yaşayan 80 yaşlı Hüseyn baba deyirdi ki, yeniyetmə idim, cütə gedirdik, yay şumu aparırdıq. Macqal şuma 3 litrlik dolu su qələniyi basdırdıq. Payızda gedib baxdıq ki, şumdan kənar yerlərdə torpaq yay istisində cadar-cadar olduğu halda, yay şumuna basdırılmış qələnikdəki su buxarlanmadan olduğu kimi qalmış, şumun altında rütubət özünü saxlamışdır.*

*Bax min illərin sınağı budur. Ən qiymətli üsuldur. Ataların belə bir məsəli var: "Necə olarsa toxumun əsli, elə də olar onun nəsli".*

– Hazırda muxtar respublikada "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatı özünün 200 hektarlıq sahəsində yerli "Arandəni" arpa, "Qılçıqsız-1", "Qiymətli", "Ruzi", "Dağ-daş" buğda sortları ilə yanaşı, qonşu ölkələrdən "Quality", "Quadilop" kimi məhsuldar buğda toxumları ilə fermer və sahibkarları toxum materialı ilə təmin edir. Heç şübhəsiz ki, taxıl məhsullarına tələbatın ödənilməsi məqsədilə bu payız da keçənilki qədər, yəni 36 min hektaradək arpa-buğda əkinləri keçirmək nəzərdə tutulmuşdur.

***– Səpin norması necə olmalıdır?***

Səpin norması torpaqların qida maddələri ilə təmin olunmasından, şum altına verilmiş mineral gübrələrin miqdarından asılı olaraq, arpa üçün hektara 180 kiloqramadək, buğda üçün sortlardan asılı olaraq, 220-280 kiloqram hüdudunda olmalıdır.

***– Zərrab müəllim, muxtar respublikada bütün növ meyvə, tərəvəz və bostan, yem bitkiləri, eləcə də taxılçılıq üçün aqroservis xidməti yaradılmış, çətin əl əməyi xeyli yüngülləşdirilmişdir. Bilmək istərdik, taxılçılıqda payız səpini və sonrakı becərmələr üçün hansı texnika növləri işlək hala gətirilmişdir?***

– Bəri başdan deyim ki, müasir texnika bizə həm də müasir sənaye texnologiyası ilə işləməyi diktə edir. 326-dan çox şum traktoru, 20 ədəd kəltənəziçi, vərdənələr, 70-ə yaxın toxumsəpən, o cümlədən 30 ədəd şırımaçan, 18 ədəd gübrəsəpən payız əkininə cəlb olunub. Çiləyici aqreqatlar da kifayət qədərdir. Bütün bunların müqabilində əkini vaxtında və keyfiyyətlə keçirib suvarmanı mütəşəkkil aparmaq lazımdır.

***– Əsgər müəllim, taxılçılıqda suvarma işi ilə də bağlı fikirlərinizi bilmək istərdik.***

– Torpağa mora açıb başqov üsulu ilə suvarma hər il tədricən şırımlarla suvarma üsulu ilə əvəz edilir. Bu da əl əməyini yüngülləşdirdiyi kimi, məhsul artımına da müsbət təsir edir. O ki qaldı dəmyə sahələrdə payız əkininə, atalar məsəlidir: "Dəmyənin dəhnəsi göydədir, baxar qar-yağış rütubətinə".

Suvarılan sahələrdə məhsuldarlıq 30-35 sentnerə, dəmyə sahələrdə 15-18 sentnerə çatır. Taxılda suvarmanın düzgün təşkili başlıca şərtdir. Əlbəttə, əkinin düzgün becərilməsi də nəzarətdə saxlanılmalıdır.

***– Əsgər müəllim, bir halda yurdumuzda payız əkinindən söhbət açdıq, əkinçilik mədəniyyətimizin bir zamanlar istifadə edilən "boğazına səpin" üsulundan da taxılçılarımıza məlumat verməyinizi xahiş edirəm.***

– "Boğazına səpin" üsulu Naxçıvan torpağına məxsusdur. Öküz qüvvəsilə cüt-kotan əkini aparılan dövrlərdə tətbiq olunub. Əgər payızın son ayı imkan verirsə, qar-yağış yoxdursa, qədim üsul belədir ki, yerin qətəsinə, yəni ölçüsünə görə arpa, yaxud buğda toxumu səpilib üzdən dayaz şum edilir. Belə səpində toxum qış qabağı deyil, salamat qalaraq erkən yazda cücərir. Belə üsulda yazda il yaxşı gəlsə, suvarılan sahələrə bərabər məhsul əldə edilir. İşdir, il quraq gəlsə, belə əkinin ehtiyat rütubəti arandakı əkinlərdən də yaxşı olur, məhsul verir.

***Müsahibə üçün sağ olun.***

**Qaşdar ƏLİYEV**
***aqronom-fenoloq***

***Cari mövsümdən etibarən Topaz Premyer-Liqasında çıxış edən "Araz-Naxçıvan" futbol komandası növbəti turu məğlub başa vurub. Səfərdə "Sumqayıt"ın qonağı olan muxtar respublika təmsilçisinin 0:1 hesablı məğlubiyyətini hakimlərin də adına yazmaq olar. Oyuna iddialı hazırlaşan və ikinci hissəni, demək olar ki, rəqib qapısı önündə keçirən "Araz-Naxçıvan" bu turda da hakimin qərəzli qərarları ilə üzləşdi.***

## "Araz-Naxçıvan" növbəti oyununu keçirdi

İkinci tur Qəbələdə keçirilən matçda hakim Rəhim Həsənovun 19-cu dəqiqədə qayda pozuntusu olmadığı halda komandamızın qapısına penalti təyin etməsi komandanın xal itkisi ilə nəticələnmişdi. Komandamız buna etirazını bildirmədiyi halda, növbəti dəfə yenə referilərin səhvlərinə görə meydanı məğlub tərk etdi. Matçın gedişinə gəlincə, ilk 20 dəqiqədə meydan sahibləri qırmızı-ağların qapısı önündə təhlükəli anlar yaratdılar ki, bu epizodların biri qolla nəticələndi. 22-ci dəqiqədə sağ cinahdan sürətli hücumu Kiyan Sultanpur məntiqi sonluqla yekunlaşdırdı. Qol sanki futbolçularımızı daha təmkinli, sürətli və dəqiq oynamağa vadar etdi. Birinci hissənin ilk yarım saatında "Araz-Naxçıvan" Bəxtiyar Soltanovla bərabərliyi təmin edə bilərdi. Ancaq bir qədər qeyri-dəqiqlik buna imkan vermədi. 39-cu dəqiqədə yenə diqqətlər B.Soltanovun üzərinə cəmləşdi. Belə ki, onun qüvvətli zərbəsini bu dəfə qapı xəttindən qapıçı yox, rəqib müdafiəçi çıxardı. Əli ilə topu qapıdan çıxaran müdafiəçinin bu qayda pozuntusu referi Ömər Paşayevin nəzərindən yayındı. Futbolçularımızın etirazına baxmayaraq, hakim qərarını dəyişmədi və ağ nöqtə yerinə künc zərbəsini göstərdi.

İkinci hissədə yenə diqqəti cəlb edən referi oldu. Onun müəmmalı qərarları futbolçuları tez-tez çılğınlığa vadar edir, nəticəsi isə sarı və qırmızı vərəqələrlə cəzalanmaq olurdu. Yeddi sarı, bir qırmızı vərəqənin göstərildiyi matçda növbəti qayda pozuntusu yenə fit çalınmadan yekunlaşdı. Elnur Abdulovun başla qapıya endirdiyi zərbəsi rəqib müdafiəçinin əlinə dəysə də, referinin fiti yenə susdu. Oyunun ən qalmaqallı anı isə son saniyələrdə yaşandı. Künc zərbəsində edilən asma zamanı hamıdan yüksəyə tullanan Kamal Bayramovun zərbəsi qapı xəttini keçsə də, Ömər Paşayev mərkəzi göstərmədi. Əvəzində əks istiqamətə olan cərimə zərbəsi təyin etdi. Səbəb kimi isə futbolçularımızın rəqib qapıçıya qarşı kobud oynadığını göstərdi. Halbuki oyunun videoyazısında qapıçıya "Araz-Naxçıvan" futbolçularının yox, öz oyunçularının toxunduğu açıq-aşkar görünür.

Nəticədə, 0:1 hesabı ilə məğlub olan "Araz-Naxçıvan" futbol komandası yenə hakimlərin qərəzli mövqeyinin "qurban"ı oldu. Qeyd edək ki, komandamız növbəti oyununu sentyabrın 12-də doğma arenada "İnter" futbol komandasına qarşı keçirəcək.

✍ **Ceyhun MƏMMƏDOV**


### *İtmişdir*

Həsənov Nəzarət Məjlum oğlunun adına verilmiş müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusunun 0103 nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Məmmədov Rasim Almirzə oğlunun adına olan JN-1049A inventar nömrəli 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova və mərkəzin kollektivi iş yoldaşları İlhamə Nəsirovaya, əzizi **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi teatrın direktoru Rza Xudiyevə, bibisi **ROZA XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzinin baş həkimi Abasət Hüseynəliyev və mərkəzin kollektivi iş yoldaşları Cabir Hüseynova, atası **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nəzakət Quliyeva, Hafizə Mirzəyeva, Təriqə Ələkbərova, Nazlı Kəngərli və Esmira Firudinbəyova iş yoldaşları İlhamə Nəsirovaya, əzizi **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nailə Tutayuk, Gülnarə Hümbətova, Rəfayə Babayeva, Məryəm Səlimli və Mahirə Orucova iş yoldaşları İlhamə Nəsirovaya, əzizi **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Sədaqət Məmmədova, Südabə Əliyeva, Mirəstə Hüseynova və Dilarə Rzayeva iş yoldaşları İlhamə Nəsirovaya, əzizi **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Fatimə Kəngərli, Durna Cabbarova, Hədiyyə Heydərova və Nuridə Eyvazova iş yoldaşları İlhamə Nəsirovaya, əzizi **HÜSEYNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 743